# İnnovasiyaların tətbiqi və insan kapitalının inkişafı

**_Dünya bir yerdə dayanmır, daim inkişaf edir. Bu gün müasir insan artıq həyatını ağıllı telefon, kompüter, avtomobil, məişət texnikası və sair olmadan, yeni bizə tanış olan yeniliklər olmadan təsəvvür edə bilmir. Buna görə də, əksər alimlər innovasiyanın iqtisadi və sosial inkişafın əsas hərəkətverici qüvvəsi olduğuna inanırlar. Təsadüfi deyil ki, innovasiya fəaliyyəti dünya birliyini yeni, daha yüksək inkişaf mərhələsinə gətirib çıxarmışdır. Dünyanın qabaqcıl ölkələrindən biri olan Azərbaycanda da dövlət siyasətinin vacib prioritetlərindən biri iqtisadiyyatın yeni inkişaf yoluna – innovasiya iqtisadiyyatına yönəldilməsidir. Bunun bazasını isə Azərbaycanda biliyə əsaslanan sahələrin və elmtutumlu texnologiyaların, ən əsası insan kapitalının inkişaf etdirilməsi təşkil edir._**



İnnovasiya iqtisadiyyata böyük təsir göstərir. Belə ki, innovasiyalar məhsulun keyfiyyətinə təsir edir, yeni tamamilə yeni və ya təkmilləşdirilmiş məhsullar meydana çıxır. Bu məhsullar da insanın tələbatını tam ödəmək imkanındadır. Bundan başqa, innovasiyalar iqtisadi artıma kömək edir, yeni iqtisadiyyatın yeni sahələri, vahid bazar yaradılır (məsələn, internet). Bu gün insanlar dünyanın istənilən yerində, internet-mağaza vasitəsilə onlara lazım olan məhsulu ala bilirlər. Nəhayət, ixtisaslı mütəxəssislərin payı artır və beləliklə də zəruri kadrların keyfiyyəti də artır. Növbəti üstünlük isə innovasiyaların insanların həyat səviyyəsinə təsir etməsidir. Yəni insanın həyat şəraitini yaxşılaşdırır. Bununla yanaşı, internet insan dünyagörüşünün genişlənməsinə, yeni faydalı məlumatların əldə olunmasına, ünsiyyət dairəsinin genişlənməsinə kömək edir. Həmçinin, innovasiya istehsal xərclərinin azalmasına şərait yaradır. Belə ki, elektrik enerjisinin, suyun və s. sərfinin həcmini azaltmağa imkan verən yeni texnologiyalar ixtira edilir. Ən əsası, innovasiya mənfəətin artmasına kömək edir. Daha yüksək keyfiyyətli məhsullar yaradılır, istehsal olunan məhsulların sayı da artır.

Azərbaycanda innovasiyanın inkişafı üzrə genişmiqyaslı işlər görülür və bu proses sürətlə davam edir. Belə ki, müvafiq agentliklər, yüksək texnologiyaları işləyib həyata keçirən texnoparklar təsis olunmuşdur. Ölkədə innovasiya sahibkarlığı sahəsində tədbirlər həyata keçirilir. Azərbaycanın bütün sənaye sahələrində dövlət bu sahənin böyük imkanlarından istifadə edərək digər sahələrin inkişafının stimullaşdırılmasını təmin edir. Azərbaycan hökuməti gözəl anlayır ki, iqtisadiyyatın davamlı və dinamik inkişafı innovasiya proseslərinin effektivliyindən birbaşa asılıdır və bu proseslərin səmərəliyi isə məqsədyönlü idarəetməni tələb edir. Heç kimə sirr deyil ki, müasir iqtisadiyyata xas olan inteqrasiya və qloballaşma proseslərinin yüksək intensivliyi bir çox iqtisadi proseslərin və hadisələrin məzmununu dəyişir. Belə ki, rəqabət dinamik və qlobal xarakter daşıyır. Belə şəraitdə sənaye müəssisələri öz fəaliyyətini inkişaf etdirmək məqsədi ilə dinamik dəyişikliklərə xas olan rəqabət üstünlüklərini formalaşdırmalı və gücləndirməlidirlər. Mütəxəssislərin qiymətləndirməsinə görə, inkişaf etmiş ölkələrdə ÜDM-in artımı istehsal proseslərinin və xidmət proseslərinin, innovativ material və məhsulların təşkilinin texnoloji, istehsal avadanlıqlarında, forma və metodlarında təcəssüm olunan yeni biliklərin praktiki tətbiqi hesabına təxminən 80 faiz təmin olunur. Buna görə də hazırda istifadə olunan texnologiyaların yüksək elmi tutumu (ilk növbədə informatika, elektronika, kosmik tədqiqat, biotexnologiya və s.) istehsal proseslərinin tamamilə yeni səviyyəsini təmin edir.

Sosial-iqtisadi məqsədlərə nail olmaq üçün innovasiyaların aktuallığı nəzərə alınaraq, innovasiya və investisiya fəaliyyətinin fəallaşdırılması Azərbaycan hökumətinin prioritet məsələləri kimi müəyyən edilmişdir. Bu baxımdan, hazırda respublikanın ən mühüm sosial-iqtisadi vəzifəsi istehsalatda elmi tədqiqatların tətbiqinin səmərəliliyinin yüksəldilməsidir. İnnovasiya yönümlü iqtisadi inkişaf modelində sahələrin inkişafı və sahələrarası əlaqələrin formalaşması mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Azərbaycan innovativ inkişaf mərhələsinin əsas hədəfi də çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Bu mərhələdə diqqət yetirilən əsas məsələlərdən biri də insan kapitalının inkişafıdır. Məlumdur ki, insan amili və təhsilin inkişafı böyük dəyərlərin meydana gəlməsinə və iqtisadi mənzərənin dəyişməsinə təkan verir.

Məşhur ingilis iqtisadçısı Alfred Marşal deyirdi ki, "Ən dəyərli kapital insana yatırılan kapitaldır". Azərbaycan dövləti də insan amilini həmişə diqqət mərkəzində saxlayır, insan kapitalı və təhsilin hərtərəfli inkişafına dəstək göstərir. Heç kimə sirr deyil ki, ölkəmizdə insan kapitalının inkişafı ilə bağlı ciddi islahatlar aparılır və insan kapitalının inkişafı Azərbaycanda həyata keçirilən dövlət proqramlarının əsas prioritetlərindən biridir. Bu da təsadüfi deyil, çünki Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır. Məlumdur ki, hökumətin bugünkü sosial siyasəti əhalinin və onun müxtəlif qruplarının həyat səviyyəsinin durmadan yüksəldilməsinə xidmət edir. Bu siyasətin əsas məqsədi də insan kapitalını formalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir.

Hazırda heç kim mübahisə etmir ki, insan kapitalının səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir, siyasi şüur və mədəniyyət yüksəlir, vətəndaş cəmiyyəti formalaşır və insanlar sosialyönümlü dövlətin möhkəmləndirilməsi və inkişafı proseslərində yaxından iştirak edirlər. Bunlar hər bir dövlətin arzuladığı hədəflərdir. Buna görə də, biliyə əsaslanan iqtisadiyyatın formalaşdırılması strateji əhəmiyyət kəsb edir. Azərbaycan neft ölkəsidir və son illər iqtisadi inkişafın əldə olunmasında "qara qızıl"ın rolu böyükdür. Bununla belə, neft kapitalının insan kapitalına çevrilməsi və bilik iqtisadiyyatına keçidin təmin olunması Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi inkişaf siyasətinin əsas müddəalarından birini təşkil edir. Məhz bu siyasi kursun uğurlu tətbiqi nəticəsində ölkədə hərtərəfli inkişaf baş vermişdir.

Göründüyü kimi, XX əsrin ortalarından başlayaraq aparıcı dövlətlərdə insan kapitalının yaradılmasına xüsusi diqqət yetirilir. Artıq bu, bir aksiomdur ki, müasir dövrdə təbii sərvətlər bolluğu dövlətin əsas göstəricisi hesab olunmur. Yaxın illərin təcrübəsi də göstərir ki, aparıcı dövlətlər elmtutumlu sahələrin inkişafına xüsusi diqqət ayırmaqla iqtisadi-sosial sektorlarda böyük sıçrayış əldə etdilər. Azərbaycanda da insan kapitalının inkişafı və bilik iqtisadiyyatının formalaşdırılması strateji vəzifə kimi qiymətləndirilir. İnsan kapitalının inkişafını gələcək iqtisadi strategiyanın əsas hədəflərindən biri kimi müəyyən edən Azərbaycan dövləti də nefti məhz bu istiqamətə yönəldərək hərtərəfli inkişafa zəmin yaradır. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan maddi dəyərləri, iqtisadi potensialını insan kapitalına çevirməlidir: "Çünki insan savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı möhkəmlənir". Buna görə də, şübhə yoxdur ki, ölkəmizdə insan kapitalının zəngin elmi bazaya söykənməsi bilik iqtisadiyyatına keçidi sürətləndirəcək və davamlı iqtisadi artımın təmin olunmasına imkan yaradacaq.

**_Səbuhi MƏMMƏDOV,_**
**_"Xalq qəzeti"_**

Xalq qəzeti 2021.- 12 sentyabr.- S.6.